# Şəhidlik zirvəsində sonlanan ömür yolu



**Tarix yazan Zəfər bizə asan başa gəlmədi. Vətən neçə-neçə qeyrətli oğlunu, qəhrəmanını itirdi. Bu gün həmin igidlər sayəsində Füzuli, Cəbrayıl, Şuşa torpaqlarında azad nəfəs alırıq. Fərhad da bu igidlərdən biri idi.**

Uşaqlıqdan milli ruha sahib Fərhad qoçaqlığı, iti zəkası ilə yanaşı, vətənpərvərliyi ilə də fərqlənirdi. Bayrağını, Vətənini uğrunda canından keçəcək, şəhid olacaq qədər sevirdi. Uşaq ikən ayaqyalın gəzdiyi torpağın hər qarışı onun üçün müqəddəs idi. Məktəb illərində tarix kitablarını vərəqləyərkən, şəhidlər haqqında oxuduğu zaman çox duyğulanırdı. Sanki o, çoxdan bu yolun yolçusu idi, torpaq üçün can verənlərin izi ilə gedəcəkdi…

## Səssiz, sakit görünsə də, içində fırtınalar qopurdu

Fərhad Məlikzadə 20 avqust 1997-ci ildə Sabirabad rayonunun Osmanlı kəndində Məlikovlar ailəsinin sonbeşiyi kimi dünyaya göz açıb. O, doqquzuncu sinfədək A.Məmmədov adına Osmanlı kənd orta məktəbində, sonra isə Şıxsalahlı kənd tam orta məktəbində təhsilini davam etdirib. Sakit təbiətli, zəhmətsevər və idmana marağı olan Fərhad elə uşaqlıqdan cüdo, güləş və qaydasız döyüşlə məşğul olub. İdmandakı uğurları onun həm fiziki, həm də mənəvi cəhətdən mübarizə əzmini formalaşdırıb.

Torpağına bağlı bir şəxsiyyət kimi böyüyən vətənpərvər Azərbaycan oğlu səssiz, sakit, lakin içində fırtınalar qopan gənc idi. O, məktəbi bitirəndən sonra vətən qarşısında ilk borcunu vermək üçün hərbi xidmətə yollanıb. Əsgərliyini Daxili Qoşunların Bakıdakı "N" saylı hərbi hissəsində çəkən Fərhad 2016-cı ildə hərbi xidmət müddətini nümunəvi əsgər kimi başa vuraraq geri dönüb. Bundan sonra "Çoxmübarizəli İdman Döyüş növləri" ilə daha ciddi məşğul olmağa başlayıb. İdman yarışlarında yüksək nəticələr göstərərək müxtəlif diplom və medallarla təltif olunub.

Qaragünə kəndindəki idman məktəbində uşaq və gənclərə idmanın sirlərini öyrədən Fərhadı vətənə olan sevgisi, göstərdiyi nizam-intizam, məsuliyyət və hərbi bacarıqları Azərbaycan Ordusuna aparıb çıxarıb. Əvvəlcə Beyləqandakı "N" saylı hərbi hissədə bir il kəşfiyyatçı kimi xidmət edib. Sonra Xüsusi Təyinatlı Qoşunlarda qeydiyyatdan keçərək altı aylıq xüsusi təlim kurslarında iştirak etmək üçün Xızıda yerləşən "N" saylı hərbi hissəyə dəyişdirilib. Olduqca çətin olan bu kursu uğurla başa vuran Fərhad baş gizir hərbi rütbəsi alaraq 2020-ci ildə Sumqayıtda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb.



## Yaralansa da, döyüş meydanına geri döndü

2020-ci il 27 sentyabr... Həmin gün Azərbaycan Ordusu 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsinə atıldı. Fərhad Məlikzadə bu müharibədə təkcə əsgər deyil, Vətənə and içmiş bir oğul, torpağa bağlı övlad, əqidəsinə sadiq döyüşçü kimi ilk gündən cəbhəyə yollandı, kəşfiyyatçı olaraq ön cəbhələrdə hünərlə döyüşdü. Füzuli istiqamətində döyüşlərə qatılaraq bir çox kənd və qəsəbələrin düşməndən azad olunmasında yaxından iştirak etdi. Döyüşlər zamanı düşünülmüş və ağıllı idmançı fəndləri ona gərək oldu. Qorxmazlığı, cəsarəti, hündür boyu, iri cüssəsi ilə seçilən igidə döyüş yoldaşları "canavar" deyə müraciət edirdilər. Fərhadı tanıyanlar qəhrəmanlığının adını daşıdığı babasından ona miras qaldığını deyirlər. Elə taleləri də bənzər olub. Babası da İkinci Dünya müharibəsində alman faşistlərinə qarşı döyüşüb, sağlamlığını itirib.

İlk gündən ən qızğın döyüşlərin mərkəzində yer alan Fərhad Füzuli, Cəbrayıl rayonlarının azadlığı uğrunda canı bahasına vuruşub. Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin hücumunu dəf edərkən ağır yaralanıb, xəstəxanaya yerləşdirilib. Burada 3 gün müalicə aldıqdan sonra həkimlərin, valideynlərinin israrlarına baxmayaraq, "Mən döyüşdə, dostlarımın, qardaşlarımın yanında olmalıyam!" deyərək yenidən döyüş meydanına geri dönüb.

Fərhad Məlikzadənin döyüş yolu Azərbaycanın gözbəbəyi olan Şuşada başa çatıb. O, 2020-ci il noyabrın ilk günlərində Şuşanın azadlığı uğrunda aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olub, düşmən gülləsinin qarşısına canı ilə sipər olan, torpaq uğrunda son damla qanına qədər döyüşən bir igid kimi tarixdə yerini alıb. Şəhidimiz noyabrın 12-də boya-başa çatdığı Şıx Salahlı kəndində torpağa tapşırılıb.

## Bir ailənin oğlu kimi doğuldu, bir xalqın övladı kimi şəhid oldu

Vətəni canından çox sevən, onun yolunda şəhid olan Fərhad şərəflə yaşadı, düşmənə qarşı igidliklə vuruşdu, adını qəhrəman kimi Azərbaycan tarixinə yazdı. O, bir ailənin oğlu kimi doğuldu, amma bir xalqın övladı kimi şəhid oldu.

Şəhid Fərhad Məlikzadənin göstərdiyi şücaət, rəşadət və vətənpərvərlik Azərbaycan dövləti tərəfindən də yüksək qiymətləndirildi. O, Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə, "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görüldü.

Azərbaycanın üçrəngli ay-ulduzlu bayrağını öncə idman yarışlarında başı üzərinə qaldıran qəhrəman daha sonra şanlı bayrağımızı Qarabağın zirvələrində qürurla dalğalandırdı. Onun şəhidlik zirvəsində sonlanan ömür yolu əbədiyyət üfüqündə hər zaman parlayacaq və əziz xatirəsi daim uca tutulacaq.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 avqust (№ 178).- S.12.